**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası**

# 15 OKTYABR PREZİDENT SEÇKİLƏRİ ƏRƏFƏSİNDƏ HƏYATA KEÇİRDİYİ MONİTORİNQLƏRİN NƏTİCƏLƏRİ

**(16-31 AVQUST, 2008-Cİ İL)**

**BAKI - 2008**

**Mündəricat**


**Giriş** **3**

**Ölkədəki siyasi-iqtisadi vəziyyətin monitorinqi** **3**

**Mətbuatın monitorinqi** **6**

**Seçki prosesində baş vermiş qanun pozuntularının monitorinqi və hüquqşünasın rəyi** **9**

**Seçkilərlə bağlı mətbuatda gedən yazıların daycesti** **12**

**16-31 avqust tarixində ölkədəki siyasi-iqtisadi vəziyyətin monitorinqi – təhlil**

15-30 avqust tarixində respublikamızın siyasi həyatında bir sıra hadisələr baş vermişdir. Belə ki, seçkiqabağı təbliğat, təşviqat kampaniyası üçün prezidentliyə namizədlərin pulsuz təbliğatını aparacaq KİV-lərin siyahısı müəyyənləşib. Bunlar aşağıdakılardır:

İctimai Televiziya və Radio Yayımları Şirkəti, "Azərbaycan", "Xalq qəzeti", "Respublika" və «Bakinski raboçiy" qəzetləri.

Azərbaycan Respublikası prezidentliyinə namizədlikləri özləri tərəfindən irəli sürülmüş Arif Həsənqulu oğlu Əliyevin, Əli İsa Hacı oğlu Ağayevin və Fikrət Tağı oğlu Əhədovun namizədlikləri MSK tərəfindən təsdiq olunması haqqında qərar qəbul edilmişdir. Bununla yanaşı Böyük Quruluş Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülən Fazil Mustafayevin də (Qəzənfəroğlu) namizədliyi təsdiq olunmuşdur.

Seçkilər yaxınlaşdıqca, MSK beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da gücləndirilir. Bu məqsədlə Seçki Məcəlləsinin ingilis dilində nəşr edilməsini planlaşdırıb. Seçkilərdə şəffaflığın təmin edilməsi məqsədilə Mərkəzi Seçki Komissiyası, Avropa Şurasının Venesiya Komissiyası və Seçki Sistemləri üzrə Beynəlxalq Fond ilə birlikdə Dairə Seçki Komissiyalarının katibliklərinin ərizə və şikayətlərə baxılmasına məsul olan əməkdaşları üçün "Ərizə və şikayətlərə baxılması qaydaları" mövzusunda treninq keçirib.

Mərkəzi Seçki Komissiyası qeydiyyatdan çıxma vəsiqələrini çap edib. Vəsiqələrin Dairə Seçki komissiyalarına paylanması yekunlaşdırılıb. Seçki Məcəlləsinin tələbinə uyğun olaraq qeydiyyatdan çıxma vəsiqələri səsverməyə 50 gün qalana kimi Dairə Seçki Komissiyalarına, 25 gün qalana kimi isə məntəqə seçki komissiyalarına təqdim olunmalıdır.

Müsavat Partiyasının Divanında keçirilən iclasda müxalifət partiyalarının prezident seçkiləri öncəsi koalisiyasının yaradılması məsələsi müzakirə edilmişdir. Doqquz partiyanın daxil olduğu "Demokratik Seçki Mərkəzi"nin prezident seçkisi zamanı

fəaliyyəti ilə bağlı müzakirələrə başlanmışdır. Səbəb isə bəzi partiyaların seçkilərdə boykot mövqeyi tutması, bəzilərinin isə öz namizədləri ilə çıxış etməsidir. Partiyaların mövqeyi müəyyənləşəndən sonra qurumun fəaliyyət göstərib-göstərməməsi ilə bağlı açıqlama veriləcək.

“Seçki 2008” QHT Koalisiyası prezident seçkiləri ilə bağlı keçirdiyi monitorinqin ilk həftəsini başa vurub. Monitorinq ölkədə fəaliyyət göstərən 15 KİV arasında aparılıb. Bunlar “Azərbaycan”, “İki sahil”, “Yeni Azərbaycan”, “Yeni Müsavat”, “Azadlıq”, “Bizim Yol”, “525-ci qəzet”, “Şərq” və “Ayna” qəzetləri, “Mediaforum” və “Lent.az” İnternet saytlarını, habelə AzTV, İTV, Lider və ANS telekanallarını əhatə edir.

Avropa Şurası “Yeni Nəsil” Jurnalistlər Birliyi ilə birlikdə “Media və seçkilər: Medianın demokratik öhdəliyi” mövzusunda konfrans keçirib. Konfrans AŞ ilə Avropa Komissiyasının “Moldova və Cənubi Qafqaz – Azad və ədalətli seçkilərə dəstək” adlı birgə layihəsi çərçivəsində keçirilib. Konfransda parlamentarilər, redaktorlar, jurnalistlər, qeyri-hökumət təşkilatları və analitiklər daxil olmaqla siyasət və media sahəsindən xarici və yerli ekspertlər iştirak edib.

Avropa Şurası Venesiya Komissiyasının və ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Azərbaycanın Seçki Məcəlləsinin 145 maddəsinə şamil edilən əlavə və dəyişikliklərlə bağlı tövsiyələrinə dair Azərbaycanda İnsan Hüquqlarına Dair Beynəlxalq Standartların Təsbiti üzrə Birgə İşçi Qrupu rəy və təkliflərini açıqlayıb.

Oktyabr ayının 15-də Azərbaycanda keçiriləcək prezident seçkilərini izləyəcək MDB Müşahidə Missiyasının qərargahının rəsmi olaraq sentyabrın 16-da fəaliyyətə başlanması qərara alınıb. Sentyabr ayının 14-dən etibarən qərargahın 3 üzvü, daha sonra isə 25-30 üzvü Bakıya səfər edəcək. Seçki günü isə səsverməyə 250 nəfər müşahidəçinin qatılacağı gözlənilir.

“American Buro of Shipping” təşkilatının “Beynəlxalq və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin Azərbaycan ərazisində tanınması və tətbiq

edilməsi qaydalarının təsdiq edilməsi barədə” sertifikatlaşdırma orqanı kimi artıq öz fəaliyyətinə başlayıb.
Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) «Neft Daşları» yatağında Qazma İşləri İdarəsinin balansına 20 yeni quyu təhvil verilmişdi. Lakin avqust ayının 6-da səhər saatlarında Bakı-Tiflis-Ceyhanın Türkiyə hissəsində boru kəmərinin 30-cu siyirtmə qurğusunda baş vermiş yanğın nəticəsində neftin nəqli müvəqqəti olaraq dayandırılmışdı. Avqust ayının 21-dən etibarən isə Xəzərin Azərbaycan sektorunda yerləşən «Azəri-Çıraq-Günəşli» yataqlar blokunda hasil olunan neftin Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri ilə nəqli bərpa olundu. Hazırda neft məhdud həcmdə və arabir nəql olunur. Neftin tam həcmlə nəqli sınaq işləri başa çatdıqdan sonra bərpa olunacaq.
Bununla yanaşı Gürcüstanda baş verən hadisələr və Bakı-Tiflis-Ceyhan boru kəmərinin işinin müvəqqəti dayanması ilə əlaqədar neft ixracında yaranan geriləmənin kompensasiya edilməsi məqsədilə Azərbaycan Dövlət Neft Şirkəti İran ərazisi ilə neftin dünya bazarına çıxarılması üçün razılaşma əldə edib. Razılaşmaya əsasən, Azəri-Çıraq-Günəşli yataqlarından 300 min tona qədər nefti Səngəçal terminalından Xəzər dənizi ilə İranın Neka limanına çatdıracaq. İran isə öz növbəsində həmin həcmdə nefti Fars körfəzindən ixracını həyata keçirəcək.
Azərbaycan Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi “Akkord İnşaat-Sənaye” ASC-nin 10 milyon manatlıq səhmlərini, «Qala Sığorta» ASC-nin 1 milyon manatlıq səhmlərinin emissiya prospekti dövlət qeydiyyatına alınıb.
Regionların sosial-iqtisadi inkişaf strategiyası ilə bağlı Naxçıvan şəhərində 2 mərtəbəli, 33 fərdi dükandan ibarət yeni ticarət obyekti istifadəyə verilib. Yeni istifadəyə verilən 68 yerlik meyvə bazarı, həmçinin 80 yerlik kafedə 110 nəfər daimi işlə təmin olunub.
“2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” haqqında sərəncam imzalanıb.
Respublikada minimum aylıq əmək haqlarının və yaşa görə əmək pensiyasının baza hissəsi artırılıb. Sentyabrın 1-dən minimum aylıq əmək haqqının məbləği 25 faiz artırılaraq 75 manat müəyyən edilib.

**KİV və prezident seçkiləri: monitorinqin nəticələrinə dair hesabat**

**(16 avqust – 1 sentyabr)**

Avqustun 1-də başlanan prezident seçkilərinin kütləvi informasiya vasitələrində işıqlandırılmasının monitorinqi 7 milli qəzet və 8 aparıcı qəzet üzərində aparılır. Xatırladaq ki, monitorinq informasiya materialları və siyasi reklamın telekanallarda efir vaxtının, qəzetlərdə isə sayının və sahəsinin hesablanmasını, həmçinin bütün KİV-də obyektivlik, balansın qorunması və s. bu kimi meyarlara əməl edilməsinə diqqət yetirməyi nəzərdə tutur. Qeyd edək ki, bu artıq ikinci hesabatdır, monitorinqin yekun nəticələri isə prezident seçkilərindən sonra elan ediləcək.

***Telekanallar***

Ötən müddət ərzində elektron kütləvi informasiya vasitələri prezident seçkilərini prioritet mövzu kimi saxlamaqla gündəlik xəbər buraxılışları və həftəlik təhlil zamanı əsasən ümumi xəbərlər, rəsmi məlumatlar və beynəlxalq qurumların seçki prosesi ilə bağlı Azərbaycana səfərləri, çıxışları və rəylərini qabardıb. Amma etiraf edək ki, prezident seçkiləri ilə bağlı gözlənilən canlanma telekanallarda hələ ki müşahidə olunmur. Güman etmək olar ki, namizədlər qeydə alındıqdan, təbliğat-təşviqat kampaniyası, o cümlədən dəyirmi masalar təşkil edildikdən sonra vəziyyət kökündən dəyişəcəkdir.

Telekanallar arasında qarşıdan gələn seçkilərə ən çox diqqət yetirən İctimai Televiziyadır ki, onun xəbər buraxılışları da müxtəlif səpkili məlumatlarla seçilir. Tərəflər arasında balansı qorumağa çalışan telekanal efir vaxtının 44%-ni İlham Əliyevin fəaliyyəti, 32%-ni alternativ şəxslər, 20%-ni ümumi məlumat, 4%-ni boykot edənlər arasında paylaşdırıb. ANS və ATV telekanallarında da vəziyyət təxminən eynidir. Yalnız onlar prioriteti ümumi məlumatlar və beynəlxalq təşkilatların rəyi və şərhlərinə verib. Space və Xəzər telekanallarının buraxılışlarında isə prezident və hökumətdə təmsil olunan şəxslərin fəaliyyətindən xəbərlər üstünlük təşkil edib. Ötən hesabatımızda Lider telekanalının əsas xəbər buraxılışlarında siyasi plüralizm prinsipini qorumağa çalışdığını, amma siyasi verilişlərdə boykot edənlərlə bağlı ictimaiyyət qarşısında tənqidi şərhlərlə çıxdığını vurğulamışdıq. Qeyd edək ki, telekanal ötən müddət ərzində bu mövqeyi saxlamaqla, eyni zamanda İlham Əliyevin reklamına başlayıb. AzTV və İTV istisna olunmaqla, materialların sayı və həcmi azalmışdır.

| № | *Telekanallar:* | *İnformasiyanın sayı* | *İnformasiyanın həcmi, san.* |
|---|---|---|---|
| 1. | **ANS** | **7** | **10 dəq. 35 san.** |
| 2. | **AzTV** | **16** | **15dəq. 56 san.** |
| 3. | **ATV** | **7** | **7 dəq. 50 san.** |
| 4. | **Space** | **6** | **8 dəq. 49 san.** |

| | | | |
|---|---|---|---|
| 5. | **Lider** | **10** | **31 dəq. 50 san.** |
| 6. | **İTV** | **18** | **54 dəq. 27 san.** |
| 7. | **Xəzər** | **11** | **14 dəq. 11 san.** |

***Qəzetlər***

Çap vasitələrində də son günlər bir qədər passivlik müşahidə olunmaqdadır. Söhbət «Ekspress», «525-ci qəzet» və «Yeni Azərbaycan» qəzetləri haqqında gedir. Amma bunu hər zamankı kimi seçkiləri prioritet mövzu kimi saxlamaqla informasiyanın sayını və həcmini artıran «Azadlıq», «Bakı-xəbər» və «Yeni Müsavat» qəzetləri haqqında demək olmaz. Yeri gəlmişkən, sözügedən nəşrlər üstünlüyü boykot yolunu seçənlərə verməklə, səhifələrində alternativ şəxslər haqqında xəbərlər yayır. Məsələn, «Azadlıq» və «Müsavat» qəzetlərində prezidentliyə namizəd İqbal Ağazadə haqqında həm müsbət, həm də neytral məlumatlar yer alıb. Sözsüz ki, bunu prezident və YAP təmsilçiləri (95%) haqqında yazan «Yeni Azərbaycan» qəzeti haqqında demək mümkün deyil. Bu dəfə alternativ şəxslər barədə heç bir məlumat verməyən nəşr, yerdə qalan 5%-i rəsmi məlumatlara ayırıb. «Zerkalo», «Exo» və «Ekspress» qəzetləri isə müxtəlif baxışlı şəxslərin mövqeyini əks etdirməklə, plüralizm prinsipini qorumağa çalışıb. Yeri gəlmişkən, obyektivlik, balans və fikir müxtəlifliyi kimi əsas meyarlara bütövlükdə məhz sözügedən nəşrlər əməl edib. Bu kateqoriyada ən aşağı göstərici hər zaman olduğu kimi «Yeni Müsavat» və «Yeni Azərbaycan» qəzetlərində qeydə alınıb.

| *№* | ***Qəzetlər*** | ***Materialların sayı*** | ***Sahə, kv.sm.*** |
|---|---|---|---|
| 1. | «Azadlıq» | 55 | 12669 |
| 2. | «Bakı-xəbər» | 114 | 26147 |
| 3. | «Zerkalo» | 12 | 5197 |
| 4. | «Exo» | 24 | 7364 |
| 5. | «Yeni Azərbaycan» | 55 | 28027 |
| 6. | «Yeni Müsavat» | 88 | 15800 |
| 7. | «Ekspress» | 59 | 13260 |
| 8. | «525-ci qəzet» | 52 | 13862 |

Qeyd edək ki, rəsmi qeydiyyatdan sonra prezidentliyə namizədlər haqqında telekanallar və qəzetlərdə təqdim olunan informasiyalar mənfi, müsbət və neytral qiymətləndirilmə kimi göstəriləcək.

**Seçki prosesində baş vermiş və mətbuatda işıqlandırılmış qanun pozuntularının monitorinqi və hüquqşünasın rəyi**

**“Azadlıq” qəzeti, 21.08.2008**

## 1. Hakimiyyət seçki saxtakarlığına start verdi

Respublikanın hər yerində müxtəlif bəhanələrlə əhalidən şəxsiyyət vəsiqələri yığılır

Azərbaycan hakimiyyəti qarşıdakı seçkini saxtalaşdırmaq üçün indidən fəaliyyətə başlayıb. İqtidar ideoloqları seçkini saxtalaşdırmaq üçün müxtəlif variantlara əl atıb. Bunlardan biri əhalidən şəxsiyyət vəsiqələrinin yığılmasıdır. Söhbət ondan gedir ki, hakimiyyət müxalifətin boykot qərarından sonra əhali arasında seçkiyə marağın xeyli dərəcədə azaldığını çox gözəl bilir. İqtidar ideoloqları anlayırlar ki, bu gedişlə seçicilərinin cüzi hissəsi səsvermədə iştirak edəcək. Ona görə də, indidən seçicilərin şəxsiyyət vəsiqələrini yığaraq, səsvermə günü onların adından qutulara bülleten atmağı planlaşdırırlar. Şəxsiyyət vəsiqələri isə müxtəlif bəhanələrlə yığılır. Əsasən poçtlarda kommunal xərcləri ödəyərkən şəxsiyyət vəsiqəsi tələb edilir. Vəsiqə seriyası yazılandan sonra isə sahibinə qaytarılır. Bundan əlavə Mənzil İstismar Sahələrinin işçiləri qapı-qapı düşərək müxtəlif bəhanələrlə şəxsiyyət vəsiqələrini toplayır. Məlumatı bizə bu halla üzləşən vətəndaşlar verib.

**Hüquqşünasın rəyi:**

Azərbaycan Respublikasının Seçki Məcəlləsinin **11-1.1-ci maddəsi**nin tələblərinə müvafiq olaraq hüquqi şəxslərin, dövlət orqanlarının və bələdiyyələrin vəzifəli şəxslərinin seçkilərin (referendumun) gedişinə qanunsuz müdaxilə etmələri qadağandır. Bundan əlavə Seçki Məcəlləsinin **11-1.2-ci maddəsi**nə müvafiq olaraq Vətəndaşların seçkidə iştirak hüquqlarının həyata keçirilməsinə mane olma, vətəndaşı namizədin lehinə imza atmağa məcbur etmə və ya onun səs verməsinə mane olma, seçki sənədlərinin saxtalaşdırılması və ya saxta sənədlərin təqdim edilməsi, səsvermənin gizliliyinin pozulması və sair **bu kimi hallar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.**

Vətəndaşların şəxsiyyət vəsiqələrinin yığılması çox ciddi qanun pozuntusudur və bu kimi hallarla qarşılaşan hər bir vətəndaş dərhal hüquq mühafizə orqanlarına müraciət etməlidir.

**Mətbuatda prezident seçkiləri ilə**
**bağlı dərc olunan yazıların həftəlik icmalı**

**(25-31 avqust)**

**Azərbaycan qəzeti**
*31.08.08*

**1. MSK sədri tələbələrə və səsvermə günü qeydiyyatda olduğu seçki məntəqəsində səs vermək imkanı olmayan digər seçicilərə müraciət etmişdir**

MSK sədri müraciətində bildirmişdir ki, Seçki Məcəlləsinin 101.1-ci maddəsinin tələbinə əsasən, səsvermə günü seçicilər siyahısına daxil edilmiş seçki məntəqəsində səs vermək imkanı olmayan seçicilər müvafiq dairə və ya məntəqə seçki komissiyasından qeydiyyatdançıxma vəsiqəsi alaraq, onun əsasında səsvermə günü istənilən seçki məntəqəsində səs verə bilər. Bu, ilk növbədə, tələbələrə aiddir. Hazırda yay tətilində olan tələbələr sentyabr ayından etibarən daimi qeydiyyatda olduqları yerlərdən təhsil aldıqları şəhərlərə qayıdacaqlar.

**2. Mərkəzi Seçki Komissiyasının iclası keçirilmişdir**

AzərTAC xəbər verir ki, avqustun 30-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilmişdir. MSK-nın mətbuat xidmətindən bildirmişlər ki, əvvəlcə komissiyanın 2008-ci il 16, 18, 20 və 23 avqust tarixli iclaslarının protokolları təsdiq edilmişdir.
Sonra MSK katibi Natiq Məmmədov Azərbaycan Ümid Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İqbal Fehruz oğlu Ağazadənin namizədliyinin qeydə alınmasına dair məsələ barədə məlumat vermişdir.

**Zerkalo**
*26.08.08*

1. **ОППОЗИЦИИ ВСЕ НЕЙМЕТСЯ**

"Проект предусматривает снятие в законе "О свободе собраний" ограничения относительно выделения мест для проведения массовых акций", - заявил "Тренд" член депутатской группы "Мусават" Панах Гусейн.Панах Гусейн считает, что в законе "О свободе собраний" имеются пустоты, и это ограничивает право граждан на свободу собраний. "В статье 9 закона указаны места, где запрещено проведение массовых акций. В то же время отмечено, что список мест, допустимых для проведения собраний, определяется городскими и районными исполнительными властями.

*27.08.08*

## 1. ВОЗМОЖНО ЛИ ОБЪЕДИНЕНИЕ ОППОЗИЦИИ?

Ожидается, что переговоры о создании новой коалиции оппозиционных партий будут завершены к концу будущей недели. Об этом на днях агентству АПА сообщил руководитель центрального исполнительного аппарата "Мусават" Ариф Гаджилы. Он отметил, что переговоры ведут несколько партий, по некоторым вопросам уже достигнуты договоренности.

## 2. ИНОСТРАННЫЕ ЭКСПЕРТЫ ОБНАРУЖИЛИ У ВЛАСТИ ПОЛИТИЧЕСКУЮ ВОЛЮ

Вчера в отеле Caspian Plaza состоялся "круглый стол", организованный Совместной рабочей группой по применению в Азербайджане международных стандартов по правам человека. В основном рекомендации касались формирования избирательных комиссий на паритетной основе, подготовки механизмов для проведения расследования фактов незаконного вмешательства властных структур в избирательную кампанию, выделения мест для проведения массовых мероприятий, изменения процедуры регистрации кандидатов, усовершенствования процесса рассмотрения жалоб после избирательного процесса.

## *3.* НА ПЕРИОД ВЫБОРОВ ДЛЯ ПРЕССЫ БУДУТ СОЗДАНЫ БЛАГОПРИЯТНЫЕ УСЛОВИЯ

Вчера в Баку прошла конференция, организованная Советом Европы в сотрудничестве с объединением журналистов "Ени несил" на тему "СМИ и выборы: демократическая ответственность СМИ". Азербайджанская сторона создаст все условия для работы СМИ в ходе предстоящих 15 октября президентских выборов, заявил на мероприятии глава азербайджанской делегации в Парламентской ассамблее Совета Европы Самед Сеидов. их стандартов.

*29.08.08*

## 1. ЛИДЕРЫ ОППОЗИЦИИ ДОГОВОРИЛИСЬ ЗАБЫТЬ ПРЕЖНИЕ ОБИДЫ И РАЗНОГЛАСИЯ

Азербайджанская оппозиция, которая подошла к президентским выборам 2008 года в состоянии глубокого раскола, сегодня пытается создать единую

коалицию лидеров оппозиции, которые бойкотируют выборы. Неучастие ряда партий в президентских выборах было аргументировано тем, что не для всех кандидатов созданы равные условия, в стране не соблюдаются законы "О свободе собраний" и "О свободе слова", в Избирательный кодекс не внесены соответствующие изменения и дополнения.

*30.08.08*

**1. В АЗЕРБАЙДЖАНЕ НАЧИНАЕТСЯ БОРЬБА ЗА ПРОТЕСТНЫЙ ЭЛЕКТОРАТ**

После того как в президентских выборах отказались участвовать практически все заметные силы политической оппозиции, в Азербайджане создалась довольно тревожная ситуация: по всей стране наблюдается резкое снижение интереса к выборам со стороны населения. Уже сейчас можно с уверенностью спрогнозировать, что процент не явившихся на избирательные участки будет намного больше, чем в предыдущие избирательные кампании.

**525-ci qəzet**
*26.08.08*

**1. "Siyasi səhnədə yeni nəfəs olacağıq"**

**İQBAL AĞAZADƏ:** "SEÇKİLƏRİ BOYKOT EDƏN BÜTÜN PARTİYALARDAN SEÇKİ PROSESİNDƏ BİZƏ KÖMƏK EDƏNLƏR VAR"

*27.08.08*

**1. "Bu Seçki Məcəlləsilə tam ədalətli seçkilər keçirmək mümkündür"**

Azərbaycanda İnsan Hüquqlarına Dair Beynəlxalq Standartların Təsbiti üzrə Birgə İşçi Qrupu dünən Avropa Şurası Venesiya Komissiyasının Seçki Məcəlləsinə əlavə və dəyişikliklərə tövsiyələrinə əsasən hazırladığı rəy və təkliflər toplusunun təqdimatına həsr edilmiş mətbuat konfransı keçirib. Azərbaycanın Qərbə inteqrasiya etdiyini diqqətə çatdıran İşçi Qrupunun üzvü Məhərrəm Zülfüqarlı bunun nəticəsi olaraq Seçki Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı bir neçə Qərb təşkilatları ilə əməkdaşlıq etdiklərini bildirib. O, Venesiya Komissiyasının tövsiyələrinə uyğun olaraq, Seçki Məcəlləsinə bir sıra rəy və təkliflər hazırladıqlarını deyib. Ekspert bununla yanaşı, Seçki Məcəlləsinə edilən son dəyişikliklərdən sonra Venesiya Komissiyasının daha 4 məsələyə yenidən baxılmasını vacib saydığını söyləyib. İşçi Qrupu "Sərbəst toplaşmaq azadlığı haqqında" qanuna da əlavə və dəyişikliklərin edildiyini xatırladıb və mövcud qanunvericiliyin insanların sərbəst toplaşmaq

hüququna təminat verdiyini bildirib: "Fikrimizcə, indiki Seçki Məcəlləsi ədalətli və şəffaf seçkilərin keçirilməsinə tam imkan verir".

**2. Avropa Şurasının nümayəndəsi jurnalistlərin həbsdə olmasının əleyhinədir**

Avropa Şurası Baş katibinin Azərbaycandakı xüsusi nümayəndəsi Veronika Kotek ölkədə seçkiqabağı vəziyyətə qiymət verərkən belə deyib. "Mövcud vəziyyəti nəzərdən keçirməliyik ki, onun təkmilləşməsinə və yaxşılaşdırılmasına çalışa bilək" - deyən V.Kotekin sözlərinə görə, onlar seçki öncəsi hər bir aspektə fikir yetirirlər: "Media və jurnalistləri prioritet sahələr kimi görürük. Həmçinin bizim diqqətimiz hökumət orqanlarına və MSK-ya da yönəlib ki, məqsədimiz də onların şəxsi heyətinin təlimatlandırılmasıdır.

**3. "Seçki 2008" QHT Koalisiyasının təmsilçiləri ATƏT-in Bakı ofisində görüş keçiriblər**

"Seçki 2008" QHT Koalisiyasının üzvləri ATƏT-in Bakı ofisinin demokratikləşmə məsələləri üzrə rəhbəri Juliane Markard-Nartenlə görüş keçiriblər. Görüşdə Koalisiyanın koordinatoru, "İnam" Plüralizm Mərkəzinin rəhbəri Vahid Qazi, üzvlər - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, Multimedia İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz, CASCFEN sədri Azər Həsrət iştirak edib. V.Qazi qarşıdakı prezident seçkiləri ilə bağlı koalisiyanın fəaliyyət planı barədə məlumat verib.

**4. Mübariz Qurbanlı: "YAP hər zaman seçki kampaniyasını özü təşkil edib"**

"Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan müxtəlif seçkilərdə - prezident, parlament, bələdiyyə seçkilərində iştirak edib və hər zaman da güclü siyasi təşkilat olaraq seçki kampaniyasını özü təşkil edərək həyata keçirib. Ona görə də, hansısa bir formada hansısa seçki, dəstək koalisiyasının yaradılması bu gün gündəmdə deyil". Bu fikirləri "525"in müxbiri ilə söhbətində Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini Mübariz Qurbanlı dilə gətirib.

*28.08.08*

**1. AŞ PA seçkiyə qədər Azərbaycana xüsusi məruzəçi təyin etməyəcək**

Avropa Şurası prezident seçkilərinə qədər Azərbaycanla bağlı hansısa əsaslı sənəd, o cümlədən siyasi məhbuslarla bağlı xüsusi məruzəçinin təyin olunması barədə qərar qəbul etməyəcək. Bu barədə APA-ya eksklüziv açıqlamasında Avropa Şurası

Parlament Assambleyası (AŞ PA) Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi, estoniyalı deputat Andres Herkel deyib. Azərbaycan prezidentinin imzaladığı son əfv fərmanını alqışlayan, bu fərmanla AŞPA-nın siyasi məhbus siyahısında olan Rasim Əkbərovun azadlığa buraxılması xəbərini sevinclə qarşılayan A.Herkel bu qərarın daha əvvəl qəbul olunmasını məqbul sayır.

*29.08.08*

**1. "ACP müxalifətin koalisiyasında ola bilməz"**

## ZƏMİNƏ DÜNYAMALIYEVA: "MÜXALİFƏTİN YENİ QURUMUNUN HEÇ BİR ƏHƏMİYYƏTİ YOXDUR".

Faktiki olaraq Azərbaycanda müxalifətin bloklaşma ənənəsinin heç vaxt effekt vermədiyini söyləyən Z.Dünyamalıyevanın qənaətincə, yalnız seçkidən sonra yeniləşmiş müxalifətin hansısa bir qurumunun yaradılmasına ehtiyac duyula bilər . ACP-nin boykot qərarı vermədiyini bildirən Z.Dünyamalıyeva deyib ki, təmsil olunduğu partiya sadəcə seçkidən iştirakdan imtina edib: "Ona görə də məntiqi baxımdan ACP o qurumun içində ola bilməz".

**Azadlıq qəzeti**
*27.08.08*

**1. İqbal Ağazadə imza toplaya bilmir**

Boykot qərarı verən partiyaların nümayəndələri İqbal Ağazadəyə imzatoplama kampaniyasında kömək edibmi? Ümid Partiyasının sədri İqbal Ağazadə boykot qərarı verən partiyaların nümayəndələrinin onlarla əməkdaşlıq etdiyini deyib: "Hər halda, seçkiləri boykot edən bütün partiyaların nümayəndələrindən bizimlə əməkdaşlıq edənlər, bizimlə birgə işləyənlər, seçki prosesində bizə kömək edənlər var. Boykot qərarı vermiş partiyaların rəhbər şəxsləri isə İqbal Ağazadənin söylədiklərinin doğru olmadığını deyir. AXCP sədrinin müavini Həsən Kərimov bildirir ki, partiya üzvlərinə və rayon təşkilatlarına imzatoplama kampaniyasında kömək etmək üçün müraciət olunub. Amma bu təkliflər rədd edilib.

*28.08.08*

**1. Sərdar Cəlaloğlu yanlış düşünür**

**Arif Hacılı:** "ADP ölkənin aparıcı müxalifət partiyalarının mövqeyini bölüşəcəksə, məsləhətləşmələrdə iştirak edə bilər. Azərbaycan Demokrat Partiyasının iştirakı

olmadan müxalifətin hər hansı birliyi yarana bilməz. Çünki müxalifət deyəndə, ilk növbədə, nəzərə gələn birinci partiya ADP-dir. Biz imkan vermərik ki, Azərbaycan müxalifəti əvvəllər olduğu kimi, bu dəfə də yanlış kursla istiqamətləndirilsin".

*29.08.08*

**1. Seçkiyə münasibəti ifadə edən layihə hazırdır»**

**Arif Hacılı:** «Danışıqlar proseslərə təsir gücünə malik real müxalifət qüvvələri arasında aparılmalıdır» "Azadlıq" bloku ilə Müsavat Partiyası arasında müxalifətin əməkdaşlıq mərkəzinin yaradılması barədə məsləhətləşmələr intensiv xarakter alıb. Onun sözlərinə görə, seçkiyə münasibəti ifadə edən layihə hazırlanıb və hazırda onun müzakirəsi başlanır. Layihə qəbul olunduqdan sonra müxalifətin sənəd ətrafında birləşməsi mümkündür.

**2. Seçkipulu yığımı başladı**

Dərnəgüldəki obyektlərdən 15-50 min manat arasında pul tələb edirlər
Vergi orqanlarının əməkdaşları özəl obyekt sahiblərindən YAP namizədinin seçki kampaniyasını maliyyələşdirmək üçün pul yığmağa başlayıblar. Vergiçilər göstərişin yuxarılardan gəldiyini deyir və aybaay aldıqları qeyri-rəsmi ödənişləri öncədən tələb edirlər. Bunun müqabilində 1 il müddətinə onlardan qeyri-rəsmi ödəniş almayacaqlarına təminat verirlər. Bu barədə "Azadlıq"a iş adamlarından biri məlumat verib.

*30.08.08*

**1. İlham Əliyevi nə gözləyir?**

«ABŞ-ın tərəfi seçilərsə... bu da nəticə etibarı ilə hakimiyyət dəyişikliyinə gətirib çıxaracaq»
Bir qayda olaraq Azərbaycan hakimiyyəti regionda gərginlik yarananda konkret mövqe sərgilənməkdən çəkinərək, Rusiya ilə Qərb arasında manevr etməyə çalışır. Bir sıra hallarda iqtidarın bu siyasəti uğursuzluğa düçar olmasa da siyasi şərhçilərin fikrincə, hakimiyyətin bu dəfə də ənənəvi siyasət kursundan istifadə edə biləcəyi az inandırıcıdır. Yəni bu dəfə Azərbaycan iki güc mərkəzi arasında konkret seçim etməlidir.

*31.08.08*

**1. Sərdar Cəlaloğlu ilə danışıqlar aparmağa ehtiyac yoxdur**

"Sərdar Cəlaloğlu qarşıdan gələn seçkinin nəticələrinin şübhə altına alınmasını zərərli sayırsa, onun müxalifətin əməkdaşlıq mərkəzində təmsil olunması qeyri-mümkündür". Bu sözləri "Azadlıq"a açıqlamasında ALP-nin sədr əvəzi Əvəz Temirxan bildirib.

**APA**
*25.08.08*

### 1. Mərkəzi Seçki Komissiyası qeydiyyatdan çıxma vəsiqələrinin Dairə Seçki komissiyalarına paylanmasını yekunlaşdırır

MSK-nın mətbuat xidmətinin rəhbəri Azər Sarıyev APA-ya bildirib ki, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq qeydiyyatdan çıxma vəsiqələri səsverməyə 50 gün qalana kimi Dairə Seçki Komissiyalarına, 25 gün qalana kimi isə məntəqə seçki komissiyalarına təqdim olunmalıdır.
A.Sarıyev bildirib ki, səsvermə günü qeydiyyatda olduğu ərazidə səs verməyə imkanı olmayan seçicilər qanunun bu imkanından istifadə edib ölkənin istənilən ərazisindəki seçki məntəqəsində səs verə bilərlər. Bunun üçün seçicidən sentyabrın 21-dən oktyabrın 12-dək qeydiyyatda olduğu seçki komissiyasından qeydiyyatdan çıxma vəsiqəsi almaq tələb edilir.

### 2. Azərbaycanda seçki hüququ olan 30 min gözdən əlil prezident seçkilərində müstəqil səs verə biləcək

Bu barədə APA-ya açıqlamasında Azərbaycanın Gözdən Əlillər Cəmiyyətinin sədri Səmyar Abdullayev bildirib. Cəmiyyət sədri Azərbaycanda gözdən əlillərin MDB məkanında analoqu olmayan trafaret sistemi ilə səs verə biləcəklərini deyib. O, rəhbərlik etdiyi təşkilatın Mərkəzi Seçki Komissiyası ilə müqavilə bağlayacağını söyləyib.

### 3. MSK Venesiya Komissiyası və İFES-lə birgə treninqləri davam etdirir

Mərkəzi Seçki Komissiyası (MSK) Avropa Şurasının Venesiya Komissiyası və Seçki Sistemləri üzrə Beynəlxalq Fond (İFES) birgə Dairə Seçki Komissiyalarının (DSK) katibliklərinin ərizə və şikayətlərə baxılmasına məsul olan əməkdaşları üçün "Ərizə və şikayətlərə baxılması qaydaları" mövzusunda treninqi davam etdirib. APA-nın məlumatına görə, bu gün öz işinə başlayan treninqin növbəti mərhələsində 60 DSK-nın təmsilçiləri iştirak edib. Tədbirdə DSK-ların əməkdaşları şikayətlərlə bağlı müraciətlər prosesi ilə tanış olublar.

*26.08.08*

**Beynəlxalq təşkilatların Seçki Məcəlləsinə təklif etdiyi dəyişikliklərlə bağlı rəy açıqlanıb**

Avropa Şurası Venesiya Komissiyasının və ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Azərbaycanın Seçki Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı tövsiyələrinə dair Azərbaycanda İnsan Hüquqlarına Dair Beynəlxalq Standartların Təsbiti üzrə Birgə İşçi Qrupu rəy və təkliflərini açıqlayıb. APA-nın məlumatına görə, bu məqsədlə keçirilən tədbirdə İşçi Qrupunun eksperti Məhərrəm Zülfüqarlı çıxış edərək rəy və təklifləri tədbir iştirakçılarının diqqətinə çatdırıb. Onun sözlərinə görə, beynəlxalq təşkilatların uzun müddətdən bəri irəli sürdükləri təkliflər əsasında bu il Seçki Məcəlləsinə əlavə və dəyişikliklər edilib. Əlavə və dəyişikliklər qanunun 145 maddəsinə şamil edilib. M.Zülfüqarlı Venesiya Komissiyasının 4 məsələyə yenidən baxılmasını vacib saydığını qeyd edib. Bunlar seçki komissiyalarının formalaşdırılması zamanı balansın qorunması, şikayətlərin baxılma sisteminin təkmilləşdirilməsi, dövlət tərəfindən maliyyələşdirilən telekanallarda siyasi partiya və bloklar üçün pulsuz efir vaxtının ayrılması və müxalifət partiyalarının mitinq keçirmək hüququna qarantiyanın verilməsidir.

*27.08.08*

**MSK vətəndaşları seçkilərdə iştiraka çağıran iki plakat hazırlayıb**

Mərkəzi Seçki Komissiyası (MSK) seçiciləri oktyabrın 15-də keçiriləcək prezident seçkilərində iştiraka çağıran 2 fərqli plakat hazırlayıb. Qurumun mətbuat xidmətindən APA-ya daxil olan məlumata görə, hər biri 20 min tirajla çap olunan plakatların artıq aşağı seçki komissiyalarına paylanmasına başlanıb

*28.08.08*

**MSK sentyabrın 2-dən maarifləndirmə proqramının ikinci mərhələsinə start verəcək**

Mərkəzi Seçki Komissiyası (MSK) seçicilərin, aşağı seçki komissiyalarının üzvlərinin və digər seçki subyektlərinin maarifləndirilməsi proqramının birinci mərhələsini yekunlaşdırır. MSK-nın mətbuat xidmətindən APA-ya daxil olan məlumata görə, sentyabrın 2-dən maarifləndirmə proqramının ikinci mərhələsinə start veriləcək.

**MÜSAVAT**
*27.08.08*

### 1. AŞ PA AZƏRBAYCANA ARAŞDIRMA MİSSİYASI GÖNDƏRƏCƏK

**Səməd Seyidov:** "Seçkiləri izləyəcək Avropa Şurası müşahidəçilərinin tərkibi sentyabrın 5-də təsdiqlənəcək"

Azərbaycanda prezident seçkilərini izləyəcək Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) missiyasının tərkibi Avropa Şurası Bürosunun sentyabrın 5-də Parisdə keçiriləcək iclasında tam təsdiqlənəcək. APA-nın məlumatına görə, bu barədə Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib. S.Seyidovun sözlərinə görə, seçkiqabağı araşdırma missiyası bu yaxınlarda Azərbaycana səfər edəcək, sonra isə geniş tərkibli missiya gələcək. O, Azərbaycanda keçiriləcək prezident seçkilərinin AŞ PA-nın yanvar sessiyasının gündəliyinə salınacağını da vurğulayıb. Qeyd edək ki, AŞ PA seçkiləri müşahidə etmək üçün 30 müşahidəçi göndərməyi planlaşdırır.

### 2. AVROPA ŞURASI SEÇKİ DÖVRÜNDƏ MƏTBUATIN DURUMUNU DİQQƏTDƏ SAXLAYACAQ

**Bakıda media və seçkilər mövzusunda konfrans keçirildi**

Dünən Avropa Şurası "Yeni Nəsil" Jurnalistlər Birliyi ilə birgə "Media və seçkilər: medianın demokratik öhdəliyi" mövzusunda konfrans keçirdi. Konfrans Avropa Şurası ilə Avropa Komissiyasının "Moldova və Cənubi Qafqaz - azad və ədalətli seçkilərə dəstək" adlı birgə layihəsi çərçivəsində baş tutub. Konfransda parlamentarilər, redaktorlar, jurnalistlər, qeyri-hökumət təşkilatları və analitiklər, xarici və yerli ekspertlər iştirak edirdi.
Tədbirdə Avropa Şurasından media və seçkilər üzrə ekspertlər Paskal Moni, Kis Bonman, Devid Uard, o cümlədən Avopa Şurasının Baş katibinin Azərbaycandakı şəxsi nümayəndəsi Veronika Kotek və təşkilatın Bakı ofisinin rəhbəri İlqar İbrahimli iştirak edirdi.

*29.08.08*

### 1. MSK İQBAL AĞAZADƏNİN SƏNƏDLƏRİNƏ BAXIB

A.Sarıyev artıq imza vərəqələrini MSK-ya təqdim edən İqbal Ağazadənin sənədlərinə baxıldığını söylədi: "İqbal Ağazadənin imza vərəqələri avqustun 22-də bizə təqdim olunub. Seçki Məcəlləsinin 60.1-ci maddəsinin tələbinə görə, MSK-ya təqdim olunmuş imza vərəqələrinə 10 gün müddətində baxılmalıdır".

**XALQ QƏZETİ**
*29.08.08*

**1. Azərbaycanda prezident seçkilərində Birlik ölkələrindən müşahidəçilər missiyasına MDB-nin icraçı katibi başçılıq edəcəkdir**

Belarus Teleqraf Agentliyi xəbər verir ki, MDB Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) və Dövlət Başçıları Şurasının (DBŞ) növbəti iclaslarının gündəlikləri artıq tərtib edilmişdir.
XİNŞ-in iclası oktyabrın 9-da Bişkekdə keçiriləcəkdir. Xarici işlər nazirləri MDB ölkələrinin müxtəlif sahələrdə əməkdaşlığına dair 26 məsələni müzakirə edəcəklər. DBŞ-nin iclasının oktyabrın 10-da Bişkekdə keçirilməsi nəzərdə tutulmuşdur. Bütövlükdə 18 məsələni, o cümlədən 2020-ci ilədək olan dövrdə Birliyin iqtisadi inkişafının strategiyası layihəsini və 2009-cu ildə energetika sahəsində əməkdaşlığın qarşılıqlı əlaqələrin mühüm sahəsi kimi müəyyənləşdirilməsi məsələsini dövlət başçılarının müzakirəsinə təqdim etmək nəzərdə tutulur.

2. **Mərkəzi Seçki Komissiyası maarifləndirmə proqramını davam etdirir**

Mərkəzi Seçki Komissiyası (MSK) seçicilərin, aşağı seçki komissiyaları üzvlərinin və digər seçki subyektlərinin maarifləndirilməsi ilə bağlı proqramını davam etdirir.
MSK-nın mətbuat xidmətindən bildirmişlər ki, bu proqramın tərkib hissələrindən biri də seçiciləri kütləvi informasiya vasitələri ilə maarifləndirmənin həyata keçirilməsidir. Artıq MSK-nın İctimai Televiziya və rəsmi dövri nəşrlər vasitəsilə gerçəkləşdirdiyi proqramın birinci mərhələsi başa çatmaq üzrədir. Sentyabrın 2-dən isə İctimai Televiziya və rəsmi qəzetlər vasitəsilə maarifləndirmə proqramının ikinci mərhələsinə başlanılacaqdır.

*30.08.08*

**1. MSK sədri məcburi köçkünlərə və tələbələrə müraciət edib**

Daimi qeydiyyatda olduğu ərazidə səsvermədə iştirak edə bilməyən seçicilər sabahdan başlayaraq Dairə Seçki Komissiyalarından (DSK) qeydiyyatdan çıxma vəsiqəsi ala bilərlər. APA-nın məlumatına görə, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov deyib. Onu sözlərinə görə, qurumun qəbul etdiyi Təqvim Planına uyğun olaraq seçkilərə 45 gün müddət qaldığı vaxtdan seçicilər qeydiyyatdan çıxma vəsiqəsi götürə bilərlər. MSK sədri sentyabrın 15-dən ali məktəblərdə dərslərin başladığını əsas gətirərək onların öz ərazilərində səs vermək imkanının olmadığını vurğulayıb.

**2. Mərkəzi Seçki Komissiyası İqbal Ağazadənin Azərbaycan prezidentliyinə namizədliyini qeydə alıb**

Ümid Partiyasının sədri İqbal Ağazadənin prezidentliyə namizədliyinin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim etdiyi imzaların 3256-sı etibarsız sayılıb. APA-nın məlumatına görə, bu barədə qurumun bu gün keçirilən iclasında MSK katibi Natiq Məmmədov məlumat verib.